**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**VÜSAL RZA oğlu RZAYEV**

# ALİ TƏHSİLLİ MƏZUNLARIN ƏMƏK BAZARINDA TƏLƏB VƏ TƏKLİFİN TƏNZİMLƏNMƏSİNƏ KARYERA MƏRKƏZLƏRİNİN TƏSİRİ

**5312.01 – «Sahə iqtisadiyyatı»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2017**

Dissertasiya işi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmək və Sosial Problemlər üzrə Elmi - Tədqiqat və Tədris Mərkəzində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA –nın müxbir üzvü,
iqtisad elmləri doktoru, professor
**Akif Fərhad oğlu Musayev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Pəri Əmirəhməd qızı Həsənova**

iqtisad üzrə fəlsəfə doktoru,
**Taleh Balağa oğlu Əkbərov**

Aparıcı Təşkilat: **Azərbaycan Texniki Universiteti**

Müdafiə "___" ______________ 2017-ci il tarixdə saat $11^{00}$ -da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.
Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ______________ 2017-ci ildə göndərilmişdir.

**FD. 02.018 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.ü.f.d.** **H.S.Şamilova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Əmək bazarı cəmiyyətin sosial iqtisadi və siyasi həyatında vacib sahə olub məşğulluq dinamikasının əsas tendensiyalarını özündə əks etdirir. Əmək bazarında insan resursları artıq planlı iqtisadiyyat sistemində olduğu kimi işlə təmin edilməyərək, tələb və təklif münasibətlərinə daxil olurlar ki, burada əmək ehtiyatları arasında rəqabət yaranır. Hər bir ölkədə əmək potensialından istifadə səviyyəsi bir sıra amillərdən, xüsusilə də ölkənin iqtisadiyyatı, məhsuldar qüvvələrin inkişafı, beynəlxalq əmək bölgüsündə iştirakı, işçi qüvvəsinin peşə ixtisas səviyyəsi və sair faktorlardan asılıdır.

Azərbaycan əmək bazarında bir sıra sahələrdə işçilərin və mütəxəssislərin çatışmazlığı hiss olunur. Ölkəmizdə bu problemin aradan qaldırılması üçün səmərəli məşğulluq siyasətinin həyata keçirilməsi istiqamətində əlverişli şəraitin yaradılması, kadr hazırlığı sisteminin, o cümlədən ali təhsil şəbəkəsinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional mühitin təkmilləşdirilməsi, insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsi çox vacibdir.

Müasir dövrdə elm və təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə yanaşı, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlıq kimi vəzifələri də yerinə yetirməlidir. Milli inkişafın təmin edilməsində başlıca vasitə olan elm və təhsil, eyni zamanda ölkənin insan resursları potensialının artırılmasında mühüm və əhəmiyyətli yer tutur. Müxtəlif ölkələrdə intellektual kadr hazırlığı baxımından aparılan tədqiqatlarda, təhsilin iqtisadi inkişafa təsir etdiyini və iqtisadi artımın əhəmiyyətli bir hissəsinin əmək potensialının formalaşdırılması istiqamətində təhsil siyasətinin gücləndirilməsindən qaynaqlandığı müəyyən olunmuşdur. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin "Biz neft kapitalını – insan kapitalına çevirməliyik" şüarı insan resurslarının inkişafının ölkəmizin sosial – iqtisadi və siyasi inkişafında mühüm əhəmiyyət kəsb etdiyini göstərməkdədir. İnkişaf edən və mütəmadi olaraq yenilənən texnologiyalar istehsal prosesinə və idarəetmə sistemlərinə asanlıqla uyğunlaşmaya imkan verəcək, bilik və bacarıqlara malik təhsilli əmək qüvvəsinin mövcudluğu hər zaman ölkənin iqtisadi və sosial inkişafını sürətləndirəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 19 iyun 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" qanunun 4.0.3-cü bəndində təhsilin əsas məqsədləri kimi, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənim-

sənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq öz əksini tapmışdır. Eyni zamanda, 14 aprel 2009-cu il tarixində qəbul edilmiş "Xüsusi iqtisadi zonalar haqqında" qanun Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların (texnopark strukturlarının) yaradılması və idarə edilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətləri tənzimləyir. Qanun həmin zonalarda sahibkarlıq fəaliyyətinin təşkili qaydalarını müəyyən etməklə, tədris müəssisələrində biznes inkubasiyalarının yaradılması məqsədi ilə Karyera Mərkəzlərinin fəaliyyətinə də geniş imkanlar açır. "Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" layihəsində bir sıra rayonlarda gənclərin iş axtarmaq və məşğulluğunun təmin olunması ilə əlaqədar tədbirlər nəzərdə tutulmuşdur ki, bunlardan biri də peşəyönümlü və kadr hazırlığı ilə bağlı mərkəzlərin yaradılması hesab olunur. Nəzərdə tutulan tədbir çərçivəsində "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununun 7.5, 8.2.2 maddələrinin və Azərbaycan Respublikası Prezidentinin 15 noyabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"nın 4.6, 4.7, 4.8 bəndlərinin icrasını misal göstərmək olar. Bundan başqa, Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyri-neft sektoruna xüsusi diqqət ayrıldığını, innovasiya, təhsil, insan kapitalının inkişafı məsələlərinin daha çox önə çəkildiyini görmək mümkündür

Hazırda ali təhsilli kadr hazırlığında keyfiyyətin təmin olunması və məzunların hazırlıq səviyyəsinin ümumavropa əmək bazarı tələbləri səviyyəsinə yüksəldilməsi çox vacib məsələlərdəndir. Əmək bazarında ali təhsilli məzunların işsizlik problemləri, təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşmasındakı çətinliklər bir çox ölkələrdə günün aktual məsələlərindən birinə çevrilmişdir.

Yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə malik kadr potensialına olan tələbatın ödənilməsi üçün Azərbaycanda ali təhsil müəssisələrində verilən təhsilin keyfiyyəti və təcrübi əhəmiyyəti milli və beynəlxalq rəqabət baxımından hər keçən gün daha da artmaqdadır. Bununla yanaşı, müasir dünyada ölkələr arasında rəqabətin güclənməsi, elmi texniki tərəqqinin sürətlənməsi, informasiya texnologiyalarının həyatın bütün sahələrinə tətbiq olunması, yeni peşə və ixtisasların meydana gəlməsi əmək bazarının tələblərini dəyişmişdir. Bu da qabaqcıl təhsildə beynəlxalq təcrübəyə əsaslanan keyfiyyət standartları və göstəricilərinin hazırlanması, ixtisaslı kadrların oxuduqları təhsil müəssisələrini bitirdikdən sonra işlə təmin olunması üzrə

yeni sistemin yaradılması kimi vacib məsələləri ortaya çıxarmışdır.

Bu baxımdan, əmək bazarının tələblərinə cavab verən ali təhsilli kadrların yetişdirilməsi və onların məşğulluq problemlərinin həlli günün vacib məsələlərindəndir. Məhz bu məsələ hazırda, ali məktəblərdə karyera mərkəzlərinin yaradılması, həmin mərkəzlər üzrə əmək potensialının formalaşdırılması və istifadəsi, məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədi ilə kompleks tədbirlərin həyata keçirilməsi zərurətini doğurmuşdur. Tədqiqatlar göstərir ki, ali məktəbi bitirməyə hazırlaşan tələbələrin karyera prioritetləri dəyişir. Əgər əvvəllər gənclər sadəcə əmək haqqının yüksək olduğu müəssisələrə müraciət edirdilərsə, indi onun nüfuzuna, beynəlxalq əlaqələrinə və karyerada yüksəlişi perspektivlərinə də önəm verirlər. Eyni zamanda əmək bazarının da kadrlar qarşısında qoyduğu tələblər artmışdır. İndi müəssisələr işçini işə götürdükləri zaman onun ixtisası ilə bağlı bilikləri ilə yanaşı, xarici dil və kompüter biliklərinə, eyni zamanda sosial aktiv və dünyagörüşünün geniş olmasına da əhəmiyyət verirlər.

Tədqiqatlar göstərir ki, dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində məzunların əmək bazarının tələblərinə uyğun formalaşması və məzun olduqdan sonra işlə təmin olunmaları, düzgün istiqamətləndirilmələri üçün Karyera Mərkəzləri fəaliyyət göstərməkdədir. Azərbaycanda da ali təhsilli məzunlarının işlə təminatını həyata keçirmək və əmək bazarının tələbinə uyğun kadr hazırlığı işinə köməklik göstərmək məqsədi ilə bir sıra ali təhsil müəssisələrində Karyera Mərkəzləri və ya buna bənzər struktur bölmələri yaradılmışdır. Həmin mərkəzlər məzunlarını təhsil aldıqları müddətdə əmək bazarının tələbləri ilə yaxından tanış edir, müxtəlif fəaliyyətləri ilə onların inkişafına təkan verir, gələcək təhsilləri ilə bağlı ixtisas seçimlərinin müəyyən olunmasına köməklik göstərir və ümumilikdə məzunların karyera planlaşdırılması işini həyata keçirərək onları əmək bazarına hazırlayırlar. Lakin müasir əmək bazarındakı ali təhsilli məzunların işsizlik problemi ali təhsil müəssisələrinin əmək bazarındakı tələbi qarşılaya bilməmələrinin göstəricilərindən biridir. Bu baxımdan Azərbaycanın ali təhsil müəssisələrində yerləşən Karyera Mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi və dünya təcrübəsindən istifadə edərək sistemləşdirilməsi vacib məsələdir.

Bütün bu deyilənlər seçilən mövzunun aktuallığını şərtləndirmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyətini əsaslandırmış, problemin qoyuluşunu, məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Problemin öyrənilmə vəziyyəti.** Mövcud problem bir çox elmi nəzəriyyə və baxışlarda öz əksini tapmışdır. İqtisadi ədəbiyyatı nəzərdən keçirdiyimizdə, bu mövzuda bir çox təlim və nəzəriyyələrin işlənib hazırlandığını görmək olar.

Əmək bazarında tələb və təklifin tənzimlənməsi, əmək potensialının

formalaşması və istifadəsi, məşğulluq və işsizliklik məsələləri, ali təhsil müəssisələrində əmək bazarının tələbinə cavab verə biləcək mütəxəssislərin hazırlanması, Azərbaycanda ali təhsilli məzunların əmək bazarında müasir vəziyyətinin təhlili və digər problemlərin aktual nəzəri və praktiki məsələləri Azərbaycanın iqtisadçı alimlərindən T.Ə.Quliyevin, Ş.M.Muradovun, S.S.Mehbalıyevin, A.F.Musayevin, R.K.İsgəndərovun, A.T.Əhmədovun, Ə.Abdullayevin, D.Vəliyevin və digərlərinin əsərlərində öz əksini tapmışdır.

Araşdırılan mövzu rus alimlərindən V.S.Bulanovanın, A.E.Kotlyarın, N.A. Volqinanın, V.R.Kostakovun, A.A. Popovun, S.S.Sitayevanın və başqalarının da tədqiqat obyekti olmuşdur.

Xarici ölkələrin klassik və müasir iqtisadçı alimlərindən A.Smit, D.Rikardo, C.M.Keyns, C.Danlop, L.Ulman, J.B.Sey, A. Marşall, M.Fridman, N. Serin, N.Tortop, A.Burhan, İ.Fındıkçı və başqaları öz əsərlərində bazar iqtisadiyyatı şəraitində, əmək bazarında tələb və təklif haqqında tədqiqat aparmış, məşğulluğun tənzimlənməsi problemlərinə xüsusi diqqət ayırmışlar. Bununla yanaşı, dissertasiya işində xüsusi əhəmiyyətə malik təhsilli insan resursu anlayışı T.R. Maltus, T.U.Şults, E. Denison, J.U. Kendrik, R. Solou, R. Lukas kimi iqtisadçı alimlərin əsərlərində və tədqiqatlarında öz geniş əksini tapmışdır.

Lakin qeyd etmək lazımdır ki, ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsində Karyera Mərkəzlərinin rolunun yüksəldilməsi, ali təhsilli əmək potensialının formalaşması və istifadəsi, əhalinin bu kateqoriyasının məşğulluq quruluşunun təkmilləşdirilməsi məsələləri kompleks şəkildə tədqiq edilməmiş və araşdırılmamışdır. Məhz bu boşluq dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş, tədqiqatın məqsədini və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədiKaryera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə təsirinin tədqiqi və bu təsirin artırılması yollarının müəyyənləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Bu məqsədə çatmaq üçün konkret vəzifələr müəyyənləşdirilmişdir. Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr məntiqi ardıcıllıqla yerinə yetirilmişdir.

- müasir dövrdə ali təhsilli məzunların əmək bazarında tələb və təklifin formalaşması xüsusiyyətlərinə dair elmi-nəzəri yanaşmaların öyrənilməsi və sistemləşdirilməsi;
- ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsində karyera planlama mərkəzlərinin mühüm vasitələrdən biri olduğunun əsaslandırılması;
- ali təhsil müəssisələrinin kadr hazırlığının ölkənin əmək bazarında tələb və təklifin formalaşdırılmasında rolunun müəyyənləşdirilməsi;

- Azərbaycan Respublikasında ali təhsilli məzunların əmək bazarında müasir vəziyyətinin təhlil edilməsi;

- Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrində mövcud olan Karyera Mərkəzlərinin fəaliyyətinin təhlili və qiymətləndirilməsi;

- Azərbaycanda ali təhsilli məzunların əmək bazarının inkişaf perspektivlərinin tədqiqi;

- ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsində Karyera Mərkəzlərinin qabaqcıl dünya təcrübəsinin və onların Azərbaycanda tətbiqi imkanlarının araşdırılması;

- Azərbaycan Respublikasında Karyera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə təsirinin artırılması perspektivlərinin müəyyən edilməsi;

- Azərbaycanda Karyera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə təsirinin artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənməsi;

- Karyera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə təsirinin artırılması yollarının müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın obyekti kimi** Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri seçilmişdir.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikasının ali təhsil müəssisələrində Karyera Mərkəzlərinin yaradılması və inkişafı prosesi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** iqtisad elminin görkəmli alimlərinin sosial-iqtisadi inkişaf nəzəriyyələri, əmək bazarının, təhsil sisteminin və Karyera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə təsirinin tədqiqi sahəsində xarici ölkə və Azərbaycan alimlərinin elmi-tədqiqat işləri, respublikamızda qəbul edilmiş qanunlar təşkil edir. Tədqiqat işində iqtisadi-statistik, sosioloji və müqayisəli təhlil, ümumiləşdirmə üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiyada müxtəlif mənbələrə müraciət və istinad edilmişdir. Mövzu ilə bağlı Azərbaycan, türk, rus və ingiliscə nəşr olunan elmi əsərlərdən, informasiya bülletenlərindən, eyni zamanda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatları və bülletenlərindən, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Gənclər və İdman Nazirliklərinin məlumat xarakterli praktiki sənədlərindən, dünyanın qabaqcıl universitetlərinin bu sahə ilə bağlı məlumatları və bu qurumların rəsmi internet saytlarından, müxtəlif səviyyəli elmi konfransların materiallarından, qanunvericilik aktları və bir sıra rəsmi sənədlərdən geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycanda ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsi vasitəsi kimi Karyera Mərkəzlərinin fəaliyyəti qiymətləndirilmişdir;

- ali təhsilli məzunların əmək bazarında tələb və təklifin formalaşması istiqamətində Karyera Mərkəzlərinin dünya praktikasında mövcud olan mexanizmləri sistemləşdirilmişdir;

- ali təhsilli məzunların səmərəli məşğulluğunun təmin olunmasında Karyera Mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi yolları müəyyənləşdirilmişdir;

- Azərbaycanda ali təhsilli məzunların əmək bazarında tələb və təklifinin tənzimlənməsinə Karyera Mərkəzlərinin təsirinin artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində əmək bazarının tənzimlənməsinə dair nəzəri-metodoloji yanaşmaların öyrənilməsi və xarici təcrübənin təhlili əsasında Karyera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə mühüm vasitə olduğu əsaslandırılmış və bu mərkəzlərin inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Tədqiqat işinin əsas müddəaları və nəticələri əsasında işlənmiş tövsiyə və təkliflər ali təhsil müəssisələrində Karyera Mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi baxımından təcrübi əhəmiyyət daşıyır.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri Bakı şəhərində keçirilən "Elmin müasir nailiyyətləri" mövzusunda VI beynəlxalq elmi konfransın (Bakı, 2014), Gəncə şəhərində "Davamlı İnkişaf və Texnoloji İnnovasiyalar" mövzusunda keçirilən beynəlxalq elmi-praktiki konfransın (Gəncə, 2014), Bakı şəhərində "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş" gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransının (Bakı, 2016) materiallarında, eyni zamanda "Azərbaycan Respublikasında ali təhsilli məzunların karyera planlaşdırılması və əmək bazarında inkişafı perspektivləri" (Bakı, 2016), "Ali təhsil müəssisələrində yerləşən karyera mərkəzlərinin dünya praktikası" (Bakı, 2015), "Проблемы входа выпусников вузов на рынок труда" (Kiyev, 2013), "Ali təhsilli gənclərin əmək bazarının tələblərinə uyğun hazırlanmasında karyera planlaşdırma mərkəzlərinin rolu" (Bakı, 2012) və s. elmi məqalələrdə öz əksini tapmışdır. Tədqiqat nəticəsində ümumi həcmi 5,7 ç.v. olan 12 adda elmi məqalə və tezis dərc edilmişdir. Dissertasiya işinin əsas nəticələri Sumqayıt Dövlət Universiteti tərəfindən tətbiq edilməsi üçün qəbul edilmiş və müvafiq arayış verilmişdir. (28 dekabr 2016-cı il, № 001).

**Tədqiqatın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, əlavələr və 137 adda ədəbiyyat siyahısı olmaqla, 156 səhifədən, o cümlədən 15 cədvəl, 13 şəkil və 7 əlavədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, informasiya bazası, elmi yeniliyi, təcrübi əhəmiyyəti əsaslandırılmış, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunmasına dair məlumat verilmişdir.

Dissertasiya işin birinci fəsli **“Müasir dövrdə əmək bazarında tələb və təklifin tənzimlənməsinin elmi-metodoloji əsasları”** adlanır. Burada klassik və müasir iqtisadi konsepsiyalarda əmək bazarı haqqında nəzəri və metodoloji baxışlar, əmək bazarı, məşğulluq və işsizlik məsələlərinə konseptual yanaşmalar, əmək bazarında iş qüvvəsinin tələb və təklifin öyrənilməsində klassik və müasir metodlar öz əksini tapmışdır.

İqtisad elmində əmək bazarı nəzəriyyəsinin əsasını şotland iqtisadçısı Adam Smit, ingilis iqtisadçısı David Rikardo, fransız iqtisadçısı Jan-Batist Sey qoymuşlar. Adam Smit maddi, maliyyə və insan resurslarından optimal istifadəni azad rəqabətdə görür və sübut edirdi ki, ölkənin iqtisadiyyatında əhalinin məşğulluğunun həcmi bir işçinin orta əmək haqqı məbləği ilə müəyyən edilir. David Rikardo isə əmək haqqı məbləğinin əməyə olan tələbatından asılılığını sübut edirdi. O, belə hesab edirdi ki, əmək haqqının artması əhalinin təkrar istehsalının normal qaydada həyata keçirilməsi üçün tələb edilən minimum səviyyədən yuxarı olması əmək təklifinin artmasına, bu isə öz növbəsində əmək haqqının aşağı düşməsinə təsir göstərir. J.B.Sey isə tələblə təklif arasındakı qarşılıqlı təsirin və bu əsasda alqı-satqı predmetinin, o cümlədən əməyin (iş qüvvəsinin) qiymətinin tarazlığının əldə edilməsinin qanununu formalaşdırmışdır.

Əmək bazarının fəaliyyət mexanizminə dair geniş yayılmış ideyalardan biri də C.Danlop və L.Ulmanın fikirləridir. Onlar əsas diqqəti işçi qüvvəsinin strukturunda peşələr və sahələr üzrə müxtəlifliyin və əmək haqqının səviyyəsinin təhlilinə yönəldirlər. Göründüyü kimi, burada makroiqtisadi təhlildən bir növ imtina edilir və bazarın, ayrı-ayrı sahələrin, demoqrafik qrupların dinamikasının xüsusiyyətləri ilə əlaqələndirilməklə izah olunmasına cəhd göstərilir.

A.Smitə görə iqtisadiyyatda məşğulluğun həcmi orta əmək haqqı həddindən asılıdır. O, bazarda çoxlu sayda satıcı olmasının əhəmiyyətini vurğulamaqla yanaşı, həm də bazar ilə əlaqədar məlumatların az və ya çox olmasının bazardakı qiymətə təsir edə biləcəyini söyləmişdir. Smitin təliminə görə bazar iqtisadiyyatı “görünməyən əl” vasitəsi ilə özünü avtomatik tənzimləyən bir sistemdir. Buna görə də o, iqtisadi proseslərə dövlətin müdaxilə etməsini məqsədəuyğun saymır. Beləliklə, iqtisadiyyatı tənzimləyən “görünməyən əl” məhz özü-özünə fəaliyyət göstərən elə bir

qayda yaradır ki, bazar iqtisadiyyatı onun vasitəsi ilə qarışıqlığa davam gətirə bilir. Bununla bərabər Smit göstərirdi ki, bazarın normal inkişafı üçün bir sıra funksiyaları dövlət öz üzərinə götürməlidir.

C.M.Keyns isə, kapitalist iqtisadiyyatında məşğulluq səviyyəsini yeni tərzdə aydınlaşdırmışdır. Onun fikrincə, kapitalizmdə tam məşğulluğa zəmanət verən heç bir mexanizm yoxdur. Buradan belə nəticə çıxarılır ki, tam məşğulluq qanunauyğunluq deyil, təsadüfdür. İşsizliyin səbəbini isə xeyli dərəcədə bir sıra mühüm iqtisadi məsələlər, xüsusi ilə də yığım və investisiyalar haqqında qərarlar qəbul edilərkən tam tarazlığın gözlənilməsində axtarmaq lazımdır. Keynsdən fərqli olaraq, "azad sahibkarlıq" məktəbinin nümayəndələri kortəbii bazar mexanizmini tərifləyir və işsizliyin səbəbini əməkhaqqının yüksək olması ilə izah edirlər. Onların fikrincə, əməkhaqqının artırılması məşğulluğun və işçilərin sayının azalmasına və deməli, işsizliyə gətirib çıxarır. Bu məktəbin tanınmış nümayəndələrindən biri A.Piqu tam məşğulluğa nail olmaq üçün əməkhaqqının aşağı salınmasını zəruri hesab edir.

Ümumilikdə, əmək bazarı müəyyən iqtisadi məkan çərçivəsində işə götürən (sahibkar, hüquqi şəxslər) və işçilər (muzdlu işçilər) arasındakı iqtisadi və hüquqi münasibətləri əks etdirir. "İş qüvvəsinə malik olan vətəndaşlar öz qarşılarına bazarda müvafiq ödənişli iş axtarmaq yolu ilə özünün əmək hüququnu reallaşdırmaq məqsədi qoymuşlar. İşə götürən mənfəət gətirən istehsalı və digər fəaliyyəti təşkil etmək və həyata keçirmək üçün muzdlu işçi qüvvəsini tapmaqda maraqlıdır. Dövlət bu münasibətlərdə tənzimləyici və əlaqələndirici rol oynayır, əmək münasibətlərinin subyekti olan vətəndaşlar (muzdlu işçilər) və işə götürənlər arasında sosial tərəfdaşlığın yaranmasına və möhkəmlənməsinə yardım edir.

Bu problemlə bağlı nəzərdən keçirilən konsepsiyaların çoxu iş qüvvəsi bazarının digər bazar resursları ilə düzgün qarşılaşdırılmaması üzərində qurulmuşdur. Bu konsepsiyalara görə işçilərin ixtisası onların əmək bazarına gəlmələrindən əvvəl əldə edilir. Burada əsas problem əksər hallarda işçinin ixtisasa istehsalata gələndən sonra yiyələnməsidir. Bu isə o deməkdir ki, bazarda onun potensialını qiymətləndirmək çox çətindir. Lakin iqtisadiyyatın digər bazarları kimi, əmək bazarı da tələb və təklif qüvvələri ilə idarə olunur. Əmək bazarının digər bazarlardan fərqi isə, əməyə olan tələbin törəmə tələb olmasından ibarətdir. İşçi qüvvəsinin göstərdiyi xidmətlərin çoxu, istehlakçı tərəfindən istifadə oluna biləcək xidmətlər deyil, digər əmtəələrin istehsalında istifadə olunan amildir.

Tədqiqatlarında "əmək ehtiyatları" və "işçi qüvvəsi" anlayışlarının məzmununun şərh edilməsinə geniş yer ayıran T.Ə.Quliyev də bu iki anlayışın fərqli olduğu, eləcə də "əmək ehtiyatları" anlayışının "işçi qüvvəsi" anlayışından geniş olduğu qənaətinə gəlmişdir. T.Ə.Quliyevin fikrincə, işçi qüvvəsi dedikdə üstün olaraq məşğul olanlar və ya işləyənlər, əmək ehtiyatları dedikdə isə yalnız

məşğul olanlar deyil, eyni zamanda olmayanlar da nəzərdə tutulur. Əmək ehtiyatları eyni zamanda təkcə real deyil, həm də potensial işçi qüvvəsi kimi təzahür edir. Bir sözlə, əmək ehtiyatları həm fəaliyyət göstərən, həm də potensial işçi qüvvəsini özündə inteqrasiya edir. Bundan başqa, "işçi qüvvəsi" anlayışı "əmək ehtiyatları" anlayışından daha çox sosial məzmun əks etdirir. Məsələn, buna təhsili, peşə ixtisası, yaradıcı potensialı, biliyi, həyat təcrübəsini, mənəvi dəyərləri, işgüzarlığı, mütəşəkkilliyi və s. aid etmək olar. İş qüvvəsinin keyfiyyətinin, onun səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi hər hansı bir peşə sahibinin, real işçinin yaradıcı imkanlarını genişləndirir". Ş.M.Muradova görə isə "Cəmiyyətin əmək potensialı dedikdə, özünün fiziki və ruhi keyfiyyətləri ilə ictimai istehsalda iştirak etmək qabiliyyəti olan, onun cinsi, yaş qrupu, təhsil səviyyəsi və məşğulluğun sahə, ərazi və peşə-ixtisas strukturunun optimallaşdırılması imkanları ilə müəyyən edilən əmək ehtiyatları başa düşülür".

Beləliklə, XIX əsrin axırlarında və XX əsrdə əmək bazarı problemi bir sıra görkəmli iqtisadçıların əsərlərində geniş şərh edilmişdir. Bu alimlərin əsərlərində əmək bazarına dair bir-birindən fərqli xeyli fikirlər söylənsə də, nəticə etibarı ilə onların demək olar ki, hamısı belə bir məntiqə gəlib çıxmışdı ki, əmək bazarı dedikdə, işçi qüvvəsinin təkrar istehsalı, mübadiləsi və istifadəsini təmin edən ictimai münasibətlər, sosial norma və institutlar başa düşülür. Əmək bazarı ümumi halda işəgötürənlərlə muzdlu fəhlələr, işçi qüvvəsinin alıcıları ilə onun satıcıları arasında birincilərin əməyə olan tələbləri ilə ikincilərin işə olan təkliflərinin ödənilməsi üzrə formalaşan iqtisadi münasibətlər sistemi başa düşülür

Əmək bazarında tələb və təklifin tənzimlənməsinin ən mühüm şərti işəgötürənlərlə işaxtaranların maraqlarının və tələblərinin üst-üstə düşməsi, yəni uzlaşmasıdır. İşçi qüvvəsi əmək fəaliyyəti barədə düşünərkən bu və ya digər peşə, ixtisas və xidmət sahələrinə gələcəkdə olan tələbatı nəzərə almalı, bu tələbatın əmək bazarında hansı istiqamətdə inkişaf edəcəyini bilməlidirlər. İşaxtaran tərəfindən əmək bazarının tələbini qarşılaya bilən təklif öz növbəsində məşğulluq səviyyəsini artıracaqdır. Məşğulluq həm də iqtisadi bir kateqoriya kimi, müəyyən kəmiyyət və keyfiyyət tərəflərinə malikdir.

Birinci fəsildə eyni zamanda ali təhsil müəssisələri ilə əmək bazarı arasındakı qarşılıqlı əməkdaşlıq və ali təhsilli məzunların əmək bazarındakı fəaliyyəti də geniş tədqiq olunmuşdur. İstənilən ölkədə gənc mütəxəssislərin məşğulluğu iki əsasa söykənir – bu mütəxəssisləri yetişdirən təhsil sistemi və iş yerləri təklif edən əmək bazarı. Əmək bazarında hər bir iş yeri onu tutmuş və ya tutmaq istəyənlərə müəyyən tələblər irəli sürür, onların konkret keyfiyyətlərə, o cümlədən zəruri biliklərə, bacarıqlara və ixtisas səviyyəsinə malik olmasını şərtləndirir. Təhsil sistemi isə gəncləri bu və ya digər

istiqamətlərə yönləndirir və bununla əmək bazarında tələb və təklifin tənzimlənməsində iştirak edir. Bu baxımdan əsas fəaliyyət istiqamətlərindən biri kadr hazırlığı olan ali təhsil müəssisələri, əmək bazarı ilə qarşılıqlı əməkdaşlıq etməli və onun tələblərini nəzərə almalıdır.

Müasir dövrdə məzunların hazırlıq səviyyəsinin ümumavropa əmək bazarı tələbləri səviyyəsinə yüksəldilməsi çox vacibdir. Araşdırmalar göstərir ki, təhsil sistemi tərəfindən həyata keçirilən kadr hazırlığı ilə əmək bazarının kadrlara olan tələbatı arasında böyük disbalans mövcuddur. Bir tərəfdən, ali təhsilli məzunların ixtisaslarının əmək bazarının tələb etdiyi peşələrə uyğun gəlməməsi, tələbat olmayan ixtisaslar üzrə mütəxəssislərin artıqlığı və onların işlə təminatındakı çətinliklər, yüksək ixtisaslı kadrlarının çatışmazlığı kimi problemlər kəskin surətdə üzə çıxır. Digər tərəfdən, bazar iqtisadiyyatının tələb etdiyi, lakin mövcud təhsil sistemi ilə əhatə olunmayan yeni peşə və ixtisaslar meydana gəlmişdir. Buradan da aydın görünür ki, artan işsizliyin əsas səbəbi iş yerlərinin olmaması deyil, var olan iş yerlərinə uyğun kadrların peşə bacarıqlarının olmaması ilə bağlıdır. Bu da öz növbəsində əmək bazarındakı tələbə qarşı təklif olunan kadr potensialının yetərsizliyini nümayiş etdirməkdədir.

Dünyada keçirilən sorğu və anketlərdə universitetlərin reytinqlərinin müəyyən olunmasında, məzunların əmək bazarında işlə təmin olunmaları və peşəkar kadr kimi karyeralarını davam etdirmələri ən vacib göstəricilərdən biridir. Bir sıra ölkələrdə ali təhsil müəssisələri ilə əmək bazarı əməkdaşlığı sənayenin elmi-texniki ehtiyaclarına cavab verərkən, sənaye müəssisələri də öz növbəsində universitetləri təcrübə imkanları ilə təmin edir. Ona görə də ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsində əlaqələndirici struktur bölmələrinin, o cümlədən Karyera Mərkəzlərinin rolu danılmazdır. Karyera Mərkəzlərinin müxtəlif özünəməxsus xüsusiyyətlərə malik funksiyaları vardır. Burada əsas məqsəd işəgötürənlərlə əməkdaşlığı artırmaqdan, onların tələb və istəklərini öyrənməkdən, bu istiqamətdə tələbə heyətinin hazırlığını artırmaqdan, ali təhsil müəssisələrinin tələbə və məzunlarının peşəkar və şəxsi inkişaf sahələri üzrə inkişafını təmin etməkdən, onların işə düzəlməsinə və karyera məqsədlərinə çatmalarına kömək etmək üçün karyera planlaması və inkişafı üzrə yüksək keyfiyyətli və çoxtərəfli xidmətlərin göstərilməsindən və bununla da gənclərin əmək bazarında faydalı iş əmsalının artırılmasından ibarətdir. Bu əməkdaşlıq hər iki tərəfin maraqlarına cavab verir.

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycanda ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsində Karyera Mərkəzlərinin təsirinin tədqiqi"** adlanır. Bu fəsildə Azərbaycanda ali təhsilli məzunların əmək bazarındakı mövcud vəziyyət təhlil edilmişdir. Burada qeyd olunur ki, son illərdə Azərbaycanın əmək bazarında bir sıra müsbət meyillər müşahidə edilir. Bun-

lardan ən əhəmiyyətlisi məşğulluq səviyyəsinin artması və işsizlik səviyyəsinin azalmasıdır. Bu meyil yeni iş yerlərinin açılması ilə bilavasitə əlaqəlidir. Belə ki, Azərbaycan Respublikası üzrə 2003-cü ildən 2015-ci ilədək keçən dövrdə 1,4 milyon yeni iş yeri açılmışdır ki, bunun da 1 milyonu daimidir. Bu da öz növbəsində, yeni müəssisələrin və iş yerlərinin yaradılması ilə mövcud əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, əhalinin məşğulluğunun təmin edilməsinə və beləliklə əhalinin rifahının yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Lakin yeni iş yerlərinin yaradılmasına baxmayaraq, bu iş yerlərində çalışmaq üçün müvafiq ixtisaslı kadrlar olmalıdır. Bu baxımdan ümumi, orta və ali təhsilli məzunların əmək bazarının formalaşması xüsusiyyətlərinin tədqiqi mühüm əhəmiyyət kəsb edir. 2015-ci ilin əvvəlində Azərbaycanda 15 və yuxarı yaşda olan əhalinin 97,1%-i ali və orta (tam və ümumi orta) təhsillidir.

Rəsmi statistikaya görə, 2015-ci ildə işsiz statusu alan şəxslərin yaş qrupuna nəzər yetirdikdə görürük ki, 20-24 yaş qrupunda bu göstərici 12,8%, 25 – 29 yaş qrupunda isə 34,9% təşkil edir. Bu yaş qrupları isə ali təhsil müəssisələrindən yeni məzun olmuş və ya əmək bazarında karyera qurmaq istəyində olan fəal gənclərin yaşı ilə eynilik təşkil edir. 2010-2015-ci illərdə işsiz statusu verilmiş gənclərin təhsil səviyyəsi üzrə bölgüsü göstərir ki, ali təhsilli mütəxəssislər üzrə artım, digər təhsil səviyyələri üzrə isə azalma müşahidə olunmuşdur. Belə ki, işsiz statusu verilmiş ali təhsillilərin xüsusi çəkisi 2010-cu illə müqayisədə 12,8% artaraq, 2015-ci ildə 55,6% təşkil etmişdir. Bu isə onu göstərir ki, onların aldıqları ali təhsil heç də həmişə işlə təmin olunmalarına kömək edə bilməmişdir. Bu hal eyni zamanda ali təhsilli məzunların ixtisas seçimini edərkən, əmək bazarının tələblərini nəzərə alınmamasından irəli gəlməkdədir.

**Cədvəl 1.**

**İşsiz statusu alan şəxslərin sayının təhsil səviyyəsinə görə bölgüsü (hər 100 nəfərə, faizlə)**

| İllər | 2010 – 2015 –ci illərdə işsizlik statusu alanların təhsil səviyyəsi | | | | |
|---|---|---|---|---|---|
| | Ali təhsil | Orta ixtisas təhsili | İlk peşə -ixtisas təhsili | Tam orta təhsil | Orta təhsili olanlar |
| 2010 | 42,8 | 35,5 | 12,8 | 7,6 | 1,3 |
| 2011 | 44,7 | 35,8 | 12,7 | 6,0 | 0,8 |
| 2012 | 47,0 | 35,6 | 11,9 | 5,1 | 0,4 |
| 2013 | 48,5 | 35,8 | 11,2 | 4,2 | 0,3 |
| 2014 | 54,0 | 33,8 | 8,6 | 3,4 | 0,2 |
| 2015 | 55,6 | 33,1 | 8,2 | 2,9 | 0,2 |

Qeyd etmək lazımdır ki, hazırda formal təhsil sistemi tərəfindən həyata keçirilən kadr hazırlığı ilə əmək bazarının kadrlara olan tələbatı arasında böyük disbalans mövcuddur. Bu da əmək bazarı iştirakçıları ilə, ali təhsil

müəssisələri arasında əlaqənin olmamasından və ya çox zəif olmasından irəli gəlir. Hər il ali təhsil müəssisələrinə qəbul planı hazırlanarkən əmək bazarının tələbləri nəzərə alınmağa çalışılsa da, görünür bu kifayət deyil. Demək olar ki, çox az dəyişikliklərlə ixtisaslar üzrə tələbə qəbul olunur və məzun verilir. Nəticədə əmək bazarında öz ixtisasına və təhsil səviyyəsinə uyğun iş tapa bilməyən ali təhsilli gənc mütəxəssislər öz ixtisaslarına uyğun olmayan işlərdə çalışmaq məcburiyyətində qalırlar ki, bu da əmək bazarında tarazlığın pozulmasına gətirib çıxarır. Mövcud vəziyyəti təhlil edərək söyləmək mümkündür ki, ali təhsil müəssisələrində ölkənin hazırkı və perspektiv iqtisadi inkişaf istiqamətlərinə uyğun olan və əmək bazarının tələblərini nəzərə alan ixtisasların tədrisinə ehtiyac yaranmışdır.

Dissertasiyanın ikinci fəslində eyni zamanda Azərbaycanda ali təhsilli gənclərin əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində Karyera Mərkəzlərinin fəaliyyəti də araşdırılmış, fəaliyyətləri haqqında məlumatlar verilmişdir. Məsələn, Bakı Dövlət Universitetində Karyera Mərkəzinin əsas iş prinsipi tələbələrin gələcəkdə karyera qurmalarına kömək etmək, ölkəmizdə fəaliyyət göstərən dövlət və özəl müəssisələrin məsul əməkdaşları ilə mütəmadi olaraq universitetdə tədbirlər təşkil etmək, müxtəlif ixtisaslara uyğun vakansiyalar barədə məlumatlar verməkdən ibarətdir. Eyni zamanda bu tədbirlər və iş elanları barədə ətraflı informasiyalar rəsmi veb səhifələrində öz əksini tapır.

Digər bir misal olaraq Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyət göstərən Karyera Mərkəzinin fəaliyyətini göstərmək olar. Mərkəzin fəaliyyət istiqamətlərinə tələbələrin məlumat bazasının və inkubasiya mexanizminin hazırlanması, tələbə və məzunlar üçün internet portalının yenilənməsi və idarə olunması, əmək yarmarkalarının keçirilməsi, analitik qrupların yaradılması, biznes layihələrin hazırlanması və konsaltinq xidmətlərinin təşkili kimi məsələlər daxildir.

Eyni zamanda "ADA" Universitetində, Azərbaycan Universitetində, Xəzər Universitetində, Qərb Universitetində, Odlar Yurdu Universitetində, Azərbaycan Turizm və Menecment Universitetində, Gəncə Dövlət Universitetində, Bakı Slavyan Universitetində, Bakı Biznes Universitetində, Sumqayıt Dövlət Universitetində, Azərbaycan Memarlıq və İnşaat Universitetində fəaliyyət göstərən Karyera Mərkəzləri və ya Məzunlarla İş şöbələrinin fəaliyyətləri araşdırılmışdır. Lakin, Azərbaycanın ali təhsil müəssisələrinin əksəriyyətində tələbə və məzunlar üçün Karyera Mərkəzləri fəaliyyət göstərsə də, onların fəaliyyəti haqqında statistik məlumatlar kifayət qədər azdır. Bu baxımdan, ikinci fəslin üçüncü yarımfəslində ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsi vasitəsi kimi Karyera Mərkəzlərinin fəaliyyətinin qiymətləndirilməsi üçün müəllif tərəfindən sosioloji sorğu keçirilmişdir. Sorğuda 134 nəfər ali təhsilli məzun iştirak etmişdir. Bunların

107 nəfəri (80%) kişilər, 27 nəfəri (20%) qadınlar olmuşdur.

Sorğunun keçirilməsi üçün tərtib olunan anket bir neçə bölmədən: 1) təhsillə bağlı məlumatlar; 2) əmək fəaliyyəti; 3) universitetdə oxuyarkən Karyera Mərkəzinin fəaliyyətlərindən istifadə; 4) işlə təmin olunmada Karyera Mərkəzinin ən önəmli fəaliyyətləri; 5) Karyera Mərkəzi haqqında fikirlərdən ibarətdir.

Respondentlərin 67,2%-i Universiteti 2011-ci və sonrakı illərdə bitirmişlər. Məzunların yiyələndikləri ixtisaslar arasında maliyyə və kredit, biznesin təşkili və idarə edilməsi, beynəlxalq iqtisadi münasibətlər üstünlük təşkil edir (müvafiq olaraq, 14,2%, 9,7% və 9,7%). Təhsil səviyyəsinə görə əksər hissəni bakalavrlar təşkil edir (94 nəfər və ya 70,1%). Digər 37 nəfər (27,6%) magistr, 3 nəfər (2,2%) fəlsəfə doktorudur. Hazırkı əmək fəaliyyətinə görə respondentlərin əksəriyyəti (119 nəfər və ya 88,8%) işləyir, 14 nəfər və ya 10,4% işsizdir (iş axtarandır). 1 nəfər isə staj keçmədə ixtisas artırmada olduğunu qeyd etmişdir. Respondentlərin işlədiyi müəssisələrin fəaliyyət növü çox müxtəlifdir. Belə ki, burada 34 fəaliyyət növü göstərilmişdir.

Təhlil göstərir ki, sorğuya cəlb olunanlardan ali məktəbi bitirdikdən sonra işləyənlərin böyük əksəriyyəti (73,9%) bilavasitə öz ixtisası üzrə işləyir, 4,2%-i-nin işi aldığı ixtisasa qismən uyğundur, ixtisasına uyğun olmayan işdə çalışanlar isə 21,8% təşkil edir. Respondentlərin böyük əksəriyyəti özəl sektorda çalışır (72,3%). Dövlət sektorunda çalışanlar 16,8%, müştərək və beynəlxalq şirkətlərdə çalışanlar 6,7% təşkil edir, 4,2% isə fərdi sahibkarlıqla məşğuldur.

Araşdırmalar göstərir ki, ixtisas seçərkən çox zaman əmək bazarında müxtəlif ixtisaslara olan tələbat barədə araşdırma aparılmır. Halbuki, ixtisas seçimi təkcə onların peşəkar mütəxəssis kimi formalaşması baxımından deyil, habelə ölkə iqtisadiyyatının inkişafı baxımından da mühüm əhəmiyyət daşıyır. İxtisas seçimində əmək bazarındakı mövcud vəziyyətin və inkişaf perspektivlərinin araşdırılıb-araşdırılmaması ilə bağlı suala verilən cavablar göstərir ki, ixtisas seçərkən əmək bazarının perspektivlərini araşdıranların 83,7%-nin, araşdırmayanların 68,9%-nin hazırkı əmək fəaliyyəti seçdiyi ixtisasa uyğundur.

Universitetdə fəaliyyət göstərən Karyera Mərkəzinin hansı xidmətlərindən istifadə edilməsi ilə bağlı suala verilən cavabların təhlili göstərir ki, məzun və tələbələr əsasən bir neçə xidmətdən yararlanmışdır. Belə ki, respondentlərin 67,1%-i 2 və daha çox xidmətdən istifadə etmişdir. Ən çox istifadə olunan xidmət növü istehsalat və pedaqoji təcrübələrdir (63,4%). İkinci yerdə aylıq seminarlar (46,3%), üçüncü yerdə əmək yarmarkaları (32,8%) durur. Təcrübə gəzintiləri, təqaüd proqramları və fərdi karyera planlama xidmətlərindən də xeyli sayda tələbə və məzun yararlanmışdır (müvafiq olaraq, 28,4%, 23,9% və 23,9%). Könüllü karyera proqramları və karyera günlərinə qatılanlar daha az olmuş (müvafiq olaraq, 12,7% və 9,0%), 6,0% isə heç bir xidmətdən istifadə etməmişdir.




**Şəkil 1. Universitetdə oxuyarkən Karyera Mərkəzinin hansı xidmətlərindən istifadə etmisiniz?**

Sorğunun təhlili göstərdi ki, universitetdə oxuyarkən Karyera Mərkəzinin xidmətlərindən istifadə edənlərin 88,0%-i əmək fəaliyyəti ilə məşğuldur. Digər prizmadan baxdıqda, əmək fəaliyyəti ilə məşğul olanların 92,4%-i Karyera Mərkəzinin ən azı bir xidmətindən istifadə etmişdir. Əmək fəaliyyəti ilə məşğul olanların Karyera Mərkəzinin xidmətlərindən istifadəsinin təhlili göstərir ki, bu məzunların üçdə iki hissəsi (65,5%) istehsalat və pedaqoji təcrübələr keçmişdir. Aylıq seminarlar və əmək yarmarkaları da əmək fəaliyyəti ilə məşğul olanların ən çox cəlb olunduğu xidmətlərdir (müvafiq olaraq, 47,9% və 31,9%). Karyera Mərkəzinin xidmətlərindən hansının daha önəmli olması ilə bağlı sualı cavablandıran respondentlərin yarıdan çoxu (55,2%) istehsalat və pedaqoji təcrübənin daha önəmli olduğunu bildirmişdir. Eyni zamanda, qiymətləndirmədə təqaüd proqramları (47,0%) və fərdi karyera planlama (46,3%) xidmətləri 2-ci və 3-cü yerdədir. Önəmliliyinə görə növbəti xidmət növləri kimi əmək yarmarkalarının (43,3%) və hazırlıq kurslarının (40,3%) qeyd edilmişdir.




**Şəkil 2. İşlə təmin olunmanızda karyera mərkəzinin təsiri olubmu?**

Əmək fəaliyyəti ilə məşğul olan respondentlərin 58,9%-i işlə təmin olunmada Karyera Mərkəzinin tam və ya qismən təsirinin olduğunu bildirmişdir ki, bu da qənaətbəxş nəticə kimi qiymətləndirilə bilər.

Sorğudakı digər suala (Universitetlərdə Karyera Mərkəzinin fəaliyyəti lazımdırmı?) uyğun olaraq respondentlərin mütləq əksəriyyəti (97,0%) Karyera Mərkəzlərinin fəaliyyətinin nəyə görə lazımlı olduğunu əsaslandırmışlar. Bu əsaslandırmaları aşağıdakı kimi ümumiləşdirmək olar:

- iş təcrübəsi olmayan tələbə və məzunların işlə təmin olunmasında və düzgün istiqamətləndirilməsində rolu böyükdür;
- məzunlarla işəgötürənlərin iş birliyi və görüşləri baxımından çox vacibdir;
- yeni məzun olan tələbələrin iş dünyası ilə əlaqələndirilməsində faydası var;
- əmək bazarı və ümumi trendlər barədə məlumat almaq üçün lazımdır;
- vaxtında düzgün seçim etmək (məsələn, bitirdiyimiz ixtisasa uyğun işləyə bilmək üçün özümüzə uyğun ixtisas seçimi etməliyik) üçün lazımdır.

Beləliklə, sosioloji sorğunun nəticələrinə əsasən ölkəmizin universitetlərində fəaliyyət göstərən Karyera Mərkəzlərinin fəaliyyətini qənaətbəxş hesab etmək olar. Lakin yuxarıda da qeyd olunduğu kimi Karyera Mərkəzlərinin məzunların işlə təminatında payı 58,9 % (birbaşa təsiri 24,4 %, qismən 34,5 %) təşkil etməsi qənaətbəxş olsa da, kifayət qədər deyil. Bununla yanaşı, bu mərkəzlərin fəaliyyətini daha da genişləndirmək, onların məzunların əmək bazarının tənzimlənməsinə təsirini daha da artırmaq vacibdir. Bu məqsədlə qabaqcıl beynəlxalq təcrübədən istifadə olunması məqsədəmüvafiqdir.

Dissertasiya işinin üçüncü fəsli **"Azərbaycanda ali təhsilli məzunların səmərəli məşğulluğunun təmin olunmasında Karyera Mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri"** adlanır. Bu fəsildə Azərbaycanda ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsi istiqamətləri və bu sahədə qabaqcıl dünya təcrübəsi nəzərə alınmaqla ali təhsilli məzunların səmərəli məşğulluğunun təmin olunmasında Karyera Mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi yolları tədqiq edilmiş, Azərbaycanın beynəlxalq əmək bölgüsünə inteqrasiyası, dünya ölkələri arasında əməkdaşlıq meyillərinin güclənməsi, iqtisadiyyatın dinamik inkişafı, yeni istehsal sahələrinin meydana gəlməsi, əmək bazarında yüksək təhsil səviyyəsinə malik işçi qüvvəsinə olan tələbatın artdığı və bu baxımdan dövlətin məqsədyönlü siyasəti xüsusi qeyd olunmuşdur. Belə ki, Milli Məşğulluq Strategiyasında (2006-2015-ci illər) və Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 18 may 2007-ci ildə qəbul olunmuş, 2007-2010-cu illəri əhatə edən birinci və 15 noyabr 2011-ci ildə qəbul olunmuş 2011-2015-ci illəri əhatə edən ikinci Dövlət Proqramlarında gənclərin, xüsusilə də ali məktəb məzunlarının məşğulluğuna yönəlmiş tədbirlər onların layiqli əməklə təminatında mühüm rol oynaya bilmişdir. Eyni zamanda,

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyri-neft sektoruna xüsusi diqqət ayrıldığını, innovasiya, informasiya texnologiyaları, təhsil, insan kapitalının inkişafı məsələlərinin daha çox önə çəkildiyini görmək mümkündür. Bundan başqa, "Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" layihəsində bir sıra rayonlarda gənclərin iş axtarması və məşğulluğunun təmin olunması ilə əlaqədar tədbirlər nəzərdə tutulmuşdur ki, bunlardan biri də peşəyönümlü və kadr hazırlığı ilə bağlı mərkəzlərin yaradılması hesab olunur. Ümumilikdə isə, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"-na əsaslanaraq söyləmək mümkündür ki, ali təhsil müəssisələrində ölkənin hazırkı və perspektiv iqtisadi inkişaf istiqamətlərinə uyğun olan və əmək bazarının tələblərini nəzərə alan ixtisasların tədrisinə ehtiyac yaranmışdır. Bu məsələnin yerində və vaxtında həlli "insan kapitalı"ndan düzgün istifadəyə kömək edəcəkdir.

Hazırda əmək bazarında xarici dilləri, kompüter texnologiyalarını mükəmməl bilən və beynəlxalq təcrübəni yaxşı mənimsəmiş yüksək hazırlıqlı mütəxəssislərə olan tələbatın ödənilməsi zərurəti artmışdır. Odur ki, bir çox universitetlər öz tələbələrini hələ ali məktəbi bitirmədən əmək bazarı ilə tanış etməyə çalışır, onlara lazım olacaq peşə vərdişləri aşılamağa, bilik və bacarıqlarını yüksəltməyə çalışırlar. İntellektual və bacarıqlı insan resursunun inkişafı isə birbaşa təhsillə bağlıdır. Təhsil prosesinin düzgün təşkili zamanı insan yeni bilik və bacarıq əldə edir və iqtisadiyyatın məhsuldar qüvvəsinə çevrilir. Əhalinin peşə ixtisas xüsusiyyətləri ilə işəgötürənlərin tələbatları arasında kəskin uyğunsuzluqdan qaçmaq üçün təhsil və təlim sahəsi ilə əmək bazarının iştirakçıları daha çox qarşılıqlı əlaqədə olmalı; informasiya, nəticələrin qiymətləndirilməsi, yeniliyin inkişafı, maliyyələşmə sahələrində əməkdaşlıq etməlidirlər. Əmək bazarı və təhsil sistemi arasındakı qeyri-tarazlıq təhsil müəssisələri məzunlarının əmək bazarına sosial iqtisadi uyğunlaşması probleminin həllini mürəkkəbləşdirir və əmək fəaliyyətinin başlanğıcında olan gənclər üçün işsizlik mühüm problemə çevrilir. Bu problemin həlli əmək bazarındakı tələbin proqnozlaşdırılmasından və bu proqnozlara uyğun mütəxəssis hazırlığının həyata keçirilməsindən asılıdır. Bunun üçün ali təhsil müəssisələri ilə əmək bazarının əsas iştirakçıları arasında qarşılıqlı əlaqə olmalı, təcrübə mübadiləsi aparılmalıdır. Əmək bazarında tələbə uyğun olaraq təklif verilməli və ixtisaslı kadrlar yetişdirilməlidir. Bütün ali təhsil müəssisələrində bu işi həyata keçirə biləcək xüsusi bir struktur bölməsinə, yəni Karyera Mərkəzinə ehtiyac vardır. Bu mərkəzlər ali təhsilli məzunların əmək bazarında fəaliyyətini yüksəltmək üçün bütün subyektlərin sosial tərəfdaşlığı sisteminin yaradılmasına öz müsbət töhfəsini verəcəkdir.

Dünyanın tanınmış ali təhsil müəssisələri məzunlarının işlə təminatına xüsusi əhəmiyyət verir. Bunlardan bir neçə misal göstərmək olar. Məsələn, Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun nəzdində 2005-ci ildə Karyera Mərkəzi yaradılmışdır. Bu mərkəzin fəaliyyəti beynəlxalq profil üzrə hazırlanan mütəxəssislərə və məzunlara həm ölkə daxilində, həm də beynəlxalq əmək bazarında işə düzəlmə istiqamətində kompleks şəkildə kömək edilməsinə yönəldilmişdir.

Avropanın ən tanınmış ali təhsil müəssisələrindən biri sayılan Liverpul Universiteti də öz tələbə və məzunlarının işlə təmin olunmasına, əmək bazarında bilik və bacarığına uyğun iş tapmalarına maraq nümayiş etdirir. Bu universitetin Karyera və Məşğulluq Xidməti öz tələbələrinə əmək bazarında üstünlük qazana bilməsi üçün ekspert məsləhətləri və məlumatları verir. Onun məzunlarına işəgötürənlər tərəfindən daima tələb vardır.

Karyera mərkəzləri təcrübəsi qonşu Türkiyədə də geniş yayılmışdır. Burada yerləşən bir çox özəl və dövlət ali təhsil müəssisələrində məzunların əmək bazarına çıxışı istiqamətində Karyera Mərkəzi qurulmuşdur. Məsələn, Türkiyənin nüfuzlu ali təhsil ocaqlarından olan Sabancı Universitetində məzun ofisi adlı struktur bölmə mövcuddur. Bu bölmənin əsas fəaliyyəti buradan məzun olan gəncləri əmək bazarı ilə yaxından tanış etmək və iş dünyası ilə universitet arasında sıx əlaqələr quraraq məzunların işlə təminatına yaxından köməklik göstərməkdir. Boğaziçi Universitetində də fəaliyyət göstərən Karyera Mərkəzi mütəmadi olaraq əmək bazarında baş verən dəyişiklikləri izləyərək məzunların karyera planlanmasını məhz bu istiqamətdə formalaşdırır. Əgər bu gün əmək bazarındakı işəgötürənin tələbi dəyişirsə, universitetin məzunları Karyera Mərkəzi tərəfindən, lazım olan istiqamətdə yönləndirilir.

Azərbaycanda əmək bazarında tələb olunan ştat ilə ixtisasın adı hətta eyni olsa da (məsələn: mühasibat uçotu), mütəxəssislərdən tələb olunan bilik fərqlidir. Bu baxımdan tələbələrin sənaye müəssisələrində uzun müddətli təcrübə keçə bilmə imkanlarının təmin edilməsi də ən vacib məsələlərdəndir. Bunun üçün isə, qeyd olunan beynəlxalq təcrübədən Azərbaycanın ali təhsil müəssisələri də istifadə etməlidir. Azərbaycanda ali təhsilli gənc mütəxəssislərin əmək bazarına inteqrasiyasının idarə olunması üzrə daha təsirli tədbirlərin müəyyənləşdirilməsinə imkan verəcəkdir.

Son illərdə dünyada müxtəlif mötəbər qurumlar tərəfindən universitetlərin reytinqləri müəyyən olunur. Beynəlxalq təhsil ictimaiyyəti tərəfindən "Tayms" qəzetinin "Ali təhsil" üzrə əlavəsi, Şanxay Universitetinin hazırladığı "Dünya Universitetlərinin akademik reytinqi cədvəli" və "Forbs" jurnalı tərəfindən yaradılan reytinq cədvəlləri əsas kimi qəbul edilir. Bu reytinq cədvəlləri universitetlərin nüfuzunu müxtəlif kateqoriyalar üzrə müəyyən edir. Cədvəlləri-

nin hazırlanma mexanizmləri təqribən belədir: tədqiqat qrupları ölkələr üzrə universitetlərin fəaliyyətlərini tədqiq edir, onların əmək bazarına uyğunluğunu, tələbələrin kreativ təfəkkürünü və tədris materiallarını mənimsəmə dərəcəsini, məzunların ictimai faydalılığı səviyyəsini təyin edir və bütün məlumatları ümumiləşdirirlər. Burada ən diqqət çəkən məqamlardan biri universitetlərin əmək bazarına uyğunluğu prinsipidir ki, bu da öz növbəsində onların əmək bazarında tələb və təklifin formalaşmasına təsirini göstərir. Azərbaycanda da bu sahədə xeyli işlər görülmüşdür. Lakin ölkə ali təhsil müəssisələrində mövcud olan karyera mərkəzlərinin bir qismi formal xarakter daşıyır, bir qismi isə dünya təcrübəsindən az istifadə edir. Bu mərkəzlərin fəaliyyətini gücləndirmək, onların ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə təsirini artırmaq üçün qabaqcıl dünya təcrübəsindən istifadə olunması vacibdir.

Tədqiqat işinin yekunu aşağıdakı kimi ümumiləşdirilmişdir:

İnkişaf səviyyəsindən asılı olmayaraq digər ölkələrdə olduğu kimi, Azərbaycanda da cəmiyyətin sosial-iqtisadi inkişafı üzrə dövlət siyasətinin mühüm istiqamətlərindən biri əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, insanları fəal əmək fəaliyyətinə hazırlayan təhsil sisteminin dinamik inkişaf edən əmək bazarına uyğunlaşdırılmasıdır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hazırda təhsil fərqli inkişaf forması almış, adekvat və müasir hazırlıqlı kadrların olması dünya iqtisadiyyatının yüksəlişi üçün başlıca şərtlərdən birinə çevrilmişdir. Odur ki, dünya təhsil sisteminə inteqrasiya prosesi milli universitetlərin müasirləşdirilməsini zəruri edir. Bu şəraitdə Azərbaycanda fəaliyyət göstərən universitetlərin texniki təminatı onların səmərəli idarəetmə sistemi, keyfiyyətli kadr hazırlığı və digər amillərlə paralel aparılmalı, eyni zamanda elmi nəticələrin əldə edilməsi və tətbiqi, həmçinin kadr hazırlığında tələbəyə yanaşma metodları ən səmərəli formada həllini tapmalıdır.

Günümüzdə kadr hazırlığı prosesində əmək bazarı ilə təhsil müəssisələrini bir-birindən ayrı təsəvvür etmək çətin və hətta mümkünsüzdür. Əmək bazarında mövcud və yeni təklif olunan iş yerlərinə yüksək ixtisaslı kadrların yerləşdirilməsində universitetlərin rolu böyükdür. Əmək bazarının tələblərini nəzərə alaraq, ixtisaslar üzrə rəqabətqabiliyyətli kadrların hazırlanması istiqamətində təhsil sisteminin, xüsusi ilə də ali təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir.

Ali təhsil müəssisələri ölkənin hərtərəfli inkişaf etdirilməsi, beynəlxalq aləmdə nüfuzunun artırılması, əhalisinin sağlamlığı, maarifləndirilməsi və s. üçün istər kadr hazırlığı, istərsə də elmi texniki nailiyyətlərlə cəmiyyətin fəaliyyət sahələrinin müəyyənləşməsinə ciddi təsir göstərir.

Tədqiqat göstərir ki, ölkə üçün əhəmiyyət kəsb edən bəzi ixtisaslara (kənd təsərrüfatı, yüksək texnologiyalar və s. sahələrdə) maraq zəifdir. Həmçinin, ali

təhsil alanların çox az qismi regionlarda işləməyə meyil göstərir. Bu baxımdan, təhsil sisteminin ölkə iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması günümüzün tələbinə çevrilmiş, ali təhsil müəssisələrində ölkənin hazırkı və perspektiv iqtisadi inkişaf istiqamətlərinə və əmək bazarının tələblərinə uyğun olan ixtisaslar üzrə kadr hazırlığına ehtiyac yaranmışdır.

Mütəxəssislərin hazırlanması planlarının əmək bazarının real tələblərinə uyğun şəkildə qurulması, əmək bazarı ilə universitetlərin əlaqələrinin möhkəmləndirilməsi və davamlı olaraq inkişaf etdirilməsi ali təhsil müəssisələrinin başlıca vəzifələrindən olmalıdır. İnkişaf etmiş ölkələrdə 30-40 il bundan öncə aktuallığı ilə önə çıxan universitet-əmək bazarı (iş dünyası) əlaqələrinin düzgün təşkili hazırda həmin ölkələrin bir sıra universitetlərinin dünya miqyasında şöhrət qazanmasına və dünya iqtisadiyyatına önəmli töhfələr verə bilməsinə səbəb olmuşdur. Əməkdaşlıq nəticəsində belə universitetlər geniş texnopark imkanları ilə təsərrüfatın müxtəlif sahələrində sürətli innovasiyalara malik olmuşlar. Texnopark imkanlarının mövcudluğu təkcə elmi texniki nəticələrin əldə olunmasına deyil, həm də əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasına zəmanət vermişdir.

Kadr hazırlığı sahəsində əmək bazarının araşdırılması və qiymətləndirilməsi, tələb olunan yeni perspektivli peşə və ixtisasların müəyyənləşdirilməsi, işəgötürənlər tərəfindən konkret peşələrdən olan işçilərin fəaliyyət növlərinin və peşəkarlıq tələblərinin təyini kimi məsələlərin həllini özündə birləşdirən əmək bazarının monitorinqinin keçirilməsi vacib məsələlərdən biridir.

Ali təhsilli mütəxəssislərin nəzəri bilikləri ilə yanaşı, praktiki bacarıqlarının artırılmasına səy göstərilməsi, peşəkar kadr hazırlığı sahəsində uğurlar əldə etmək üçün universitetlərdə Karyera Mərkəzlərinin qurulması və işləməsinə dəstək verilməsi prioritet məsələlərdəndir. Bu, eyni zamanda ali təhsilli məzunların ixtisasları üzrə işlə təminatında, əmək bazarında gənc kadrlarla işəgötürənlər arasında ilkin münasibətlərin formalaşdırılmasında və digər istiqamətlərdə əməli tədbirlərin həyata keçirilməsinə imkan yaradar və məzunların gələcək karyeralarını düzgün qurmalarına və inkişaf etdirmələrində onlara kömək edər.

Ali təhsilin iki pilləli təşkili üzrə ABŞ təcrübəsinin mənimsənilməsi məqsədəuyğun olardı. Bu təcrübədən istifadə edərək, Azərbaycan ayrı-ayrı iri müəssisə və birliklərin maraqlarını elə təşkil etməlidir ki, onlar nəinki təhsilin birinci mərhələsi olan peşə ixtisas hazırlığını müəyyən məbləğdə maliyyələşdirmədə maraqlı olsunlar, habelə tələbələrə təqaüd versinlər. Ödənişli formada təhsil alanlar üçün tələbələrə dəstək kredit formasında təklif edilə bilməli və bu zaman tələbələrin müəssisələrdə ali təhsil aldıqdan sonra işləməsinin təşkili də nəzərdə tutulmalıdır.

Tədqiqat göstərir ki, ali təhsilli məzunların əmək bazarında tələb və təklifinin formalaşmasında Karyera Mərkəzlərinin, məşğulluq və işədüzəltmə idarələrinin rolu böyükdür. Azərbaycanda bir neçə nüfuzlu universitetdə fəa-

liyyət göstərən Karyera Mərkəzlərinin fəaliyyəti yüksək ixtisaslı insan resurslarının inkişafına təkan verməklə yanaşı, ümumilikdə sosial həyatın yaxşılaşmasında da mühüm rol oynayır. Dissertasiyada Karyera Mərkəzlərinin ali təhsilli məzunların səmərəli məşğulluğuna təsirinin tədqiqi və qiymətləndirilməsi aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

- Məzunların 88,8%-i əmək fəaliyyəti ilə məşğuldur. Onların böyük əksəriyyətinin işi öz ixtisasına tam və ya qismən uyğundur. Məzunların böyük əksəriyyəti özəl sektorda çalışır.
- Universitetdə oxuyarkən Karyera Mərkəzinin xidmətlərindən istifadə edənlərin 88,0%-i əmək fəaliyyəti ilə məşğuldur. Digər prizmadan baxdıqda, əmək fəaliyyəti ilə məşğul olanların 92,4%-i Karyera Mərkəzinin ən azı bir xidmətindən istifadə etmişdir.
- Karyera Mərkəzinin ən çox istifadə olunan xidmət növləri istehsalat və pedaqoji təcrübə, aylıq seminarlar və əmək yarmarkalarıdır. Əmək fəaliyyəti ilə məşğul olan məzunların əksər hissəsi məhz bu xidmətlərdən istifadə etmişdir. Karyera Mərkəzinin xidmətlərindən istehsalat və pedaqoji təcrübənin, təqaüd proqramlarının və fərdi karyera planlamasının daha önəmli olduğu aşkarlanmışdır.
- Əmək fəaliyyəti ilə məşğul olan məzunların 60%-nin işlə təmin olunmasında Karyera Mərkəzinin tam və ya qismən təsiri olmuşdur ki, bu da yaxşı nəticə kimi qiymətləndirilə bilər.

Beləliklə, ölkəmizin universitetlərində fəaliyyət göstərən Karyera Mərkəzlərinin fəaliyyətini qənaətbəxş hesab etmək olar. Bununla yanaşı, Karyera Mərkəzlərinin fəaliyyəti təhsil alan və məzun olmuş gənclərin məşğulluq probleminin həlli istiqamətində daha böyük rol oynaya bilər. Bu məqsədlə qabaqcıl beynəlxalq təcrübədən istifadə olunması məqsədəmüvafiqdir. Bu, əmək bazarının tələblərinin nəzərə alınması və ali təhsil zamanı ixtisaslaşmanın optimal planlaşdırılması ilə yanaşı, bir sıra ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinə də təkan verəcəkdir.

Universitetlərdə fəaliyyət göstərən Karyera Mərkəzlərinin ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə müsbət təsirinin artırılması istiqamətində işlərini daha səmərəli qurmaları üçün, dünya praktikasında istifadə olunan mexanizmlər sistemləşdirilərək aşağıdakı formada təklif olunur:

1. Bütün ali təhsil müəssisələrində Karyera Mərkəzi strukturunun yaradılması;
2. Tələbə və məzunların gələcək karyerası və təhsil aldığı ixtisası ilə bağlı qarşılaşdığı problemlərlə əlaqədar, Karyera Mərkəzlərinin tərkibində “Psixoloji Xidmət” bölməsinin yaradılması.
3. Əmək bazarının dəyişən tələblərini qarşılamaq məqsədi ilə, Karyera Mərkəzinin tərkibində “Davamlı İnkişaf” bölməsinin yaradılması;
4. Məzunlarının əmək bazarındakı fəaliyyətinin izlənilməsi və yeni məzunlarla əlaqələrin genişləndirilməsi məqsədi ilə, Karyera Mərkəzinin

tərkibində “Məzun Koordinasiya” bölməsinin yaradılması;

5. Karyera Mərkəzlərində çalışan kadrların təcrübə proqramlarına qatılmaları üçün maliyyə və digər zəruri tədbirlərin görülməsi;

6. Tələbə və məzunların məşğulluq problemlərinin həll edilməsi üzrə kompleks təşkilati, texniki, informasiya, konsaltinq, tədris və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, dövlət və özəl müəssisələrdə təcrübənin təmin edilməsi;

7. Karyera Mərkəzləri tərəfindən, işəgötürən firma və müəssisə nümayəndələri, o cümlədən müvafiq dövlət strukturları ilə birlikdə hazırlanmış “Ali təhsil ixtisaslarının yenidən hazırlanmasına tələbat haqqında bəyanat”ın nəşr olunması;

8. Düzgün ixtisas seçimi etməsində abituriyentlər arasında Karyera Mərkəzləri tərəfindən davamlı maarifləndirmə və məlumatlandırma işinin təşkili;

9. Karyera Mərkəzlərinin təşkilatçılığı ilə, işəgötürən müəssisələrin nümayəndələri tərəfindən əmək bazarı və iş etikası ilə bağlı, tələbə və məzunlara davamlı peşə təlimlərinin verilməsi;

10. Dövlət tərəfindən, ali təhsil müəssisələri tələbələrinin təhsil müddətində qismən əmək fəaliyyəti ilə məşğul olması istiqamətində hüquqi bazanın formalaşdırılması və bu fəaliyyətin tədris prosesi ilə əlaqələndirilməsi;

11. Universitetlərin reytinqləşməsi prosesində məzunların əmək bazarında nailiyyətlərinin qiymətləndirilməsinin nəzərə alınması;

12. Universitetlər tərəfindən Karyera Mərkəzlərinə əmək bazarının marketinq tədqiqatlarının aparılması üçün maliyyə vəsaitinin ayrılması və digər zəruri tədbirlərin görülməsi;

13. Karyera Mərkəzləri tərəfindən məzunların və tələbələrin əmək bazarındakı tələb üzrə etibarlı məlumatlara çıxışının təmin edilməsi istiqamətində elektron resurs bazasının yaradılması;

14. Məzun və tələbələr üçün karyera qurma layihələrinin qiymətləndirilməsi və inkişaf etdirilməsi üçün müsabiqələrin təşkili;

15. Karyera mərkəzinin internet portalının istifadəyə verilməsi, illik statistik nəticələrin burada yerləşdirilməsi və digər fəaliyyətlərin işıqlandırılması;

16. Karyera Mərkəzləri şəbəkəsinin genişləndirilməsi və onları əlaqələndirmək üçün Koordinasiya Şurasının yaradılması və s.

Beləliklə, universitetlərdə fəaliyyət göstərən Karyera Mərkəzləri ali təhsilli mütəxəssislərin əmək bazarına düzgün istiqamətləndirilməsi, onların səmərəli məşğulluğunun təmin edilməsi, ixtisaslarına uyğun işlə təmin olunması və iş yerinə uyğunlaşdırılması prosesində fəal iştirak edərək, ümumilikdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığı işinin daha mütəşəkkil təşkil olunmasına və bununla da, ali təhsilli məzunların əmək bazarında tələb və təklifin tənzimlənməsinə müsbət təsir edəcəkdir.

Dissertasiya işinin sonunda əldə edilən nəticələr, elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi məqalələri dərc edilmişdir:**

1. “Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi”. “Dəyişən Dünya və Gənclik” Beynəlxalq Tələbə Elmi Konfransı. Bakı - 2004, səh.130-133.
2. “Ali təhsilli gənclərin əmək bazarının tələblərinə uyğun hazırlanmasında karyera planlaşdırma mərkəzlərinin rolu”. Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi. Əmək və Sosyal Problemlər Elmi Əsərlər Toplusu . Bakı - 2012, № 2(10) səh.174-179.
3. “Müasir iqtisadi inteqrasiya şəraitində əmək potensialından istifadənin yüksəldilməsi yolları”. AMEA - İqtisadiyyat İnistitutu “Elmi Əsərlər” toplusu, Bakı - 2012, № 3, səh.299-304.
4. “Проблемы входа выпусников вузов на рынок труда”. Журнал “Інвестиції: практика та досвід” - Науково-практичний журнал. Киев - 2013; № 15, стр.106-111.
5. “Contribution of education to the Azerbaijan non-oil economic diversification policy”. Journal of Qafqaz University. Baki-2013, № 1, pag.44-50.
6. “Ali təhsilli gənclərin əmək bazarının tələblərinə uyğun hazırlanmasında Karyera Mərkəzlərinin rolu”. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Bakı - 2013, səh. 90-91.
7. “Azərbaycanda ali təhsilli məzunların əmək bazarında formalaşması xüsusiyyətləri”. “Davamlı İnkişaf və Texnoloji İnnovasiyalar” Beynəlxalq elmi-praktiki konfrans. Gəncə - 2014, səh.344-346.
8. “Ali təhsilli məzunların əmək bazarında müasir vəziyyətinin analitik təhlili”. “Elmin Müasir Nailiyyətləri” mövzusunda VI Beynəlxalq Elmi Konfrans. Bakı - 2014, səh. 70-73.
9. “Ali təhsil müəssisələrində yerləşən karyera mərkəzlərinin dünya praktikası”. Audit - Bakı Biznes Universitetinin elmi jurnalı. Bakı – 2015, № 4, səh. 83-87.
10. “Ali təhsilli məzunların əmək bazarında tələb və təklifinin formalaşmasında karyera mərkəzlərinin, məşğulluq və işədüzəltmə idarələrinin rolu”. İpək Yolu - Azərbaycan Universitetinin Elmi Jurnalı. Bakı-2015, № 4, səh.92-101.
11. “Azərbaycan Respublikasında ali təhsilli məzunların karyera planlaşdırılması və əmək bazarında inkişafı perspektivləri”, İpək Yolu - Azərbaycan Universitetinin Elmi Jurnalı. Bakı - 2016, № 1, səh. 7-15.
12. “Ali təhsilli məzunların işlə təminatının həyata keçirilməsində, universitetlərdə yerləşən karyera mərkəzlərinin dünya praktikası”. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş “Gənc Tətqiqatçıların IV Beynəlxalq Elmi Konfransı”. Bakı-2016, səh.669-670.

**Вусал Рза оглы Рзаев**

## Влияние центров карьеры в урегулировании спроса и предложения на рынке выпускников с высшим образованием

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложений, также списка использованной литературы.

Во введении обоснована актуальность темы, определены цель и задачи диссертационной работы, отражены объект и предмет исследования. В этой части работы нашло свое отражение теоретико-методологические основы, информационная база и научная новизна исследования, показаны теоретическая и практическая значимость работы.

В первой главе под названием «Научно-методологические основы регулирования спроса и предложения на рынке труда на современном этапе» посвящена исследованию теоретических и методологических взглядов классической и современной концепции рынка труда, особенностей формирования спроса и предложения на рынке труда выпускников высших учебных заведений. Здесь также рассматриваются основные направления деятельности карьерных центров в урегулировании спроса и предложения на рынке труда выпускников высших учебных заведений.

Вторая глава называется «Исследование влияния карьерных центров в урегулировании спроса и предложения на рынке труда выпускников высших учебных заведений в Азербайджане». В этой главе исследуются нынешнее состояние рынка труда выпускников высших учебных заведений, деятельность карьерных центров в направлении привлечения выпускников высших учебных заведений требованиям рынка труда и оценивается влияние карьерных центров на регулирование спроса и предложения на этом рынке.

В третьей главе диссертации под названием «Направления совершенствования функций карьерных центров в обеспечении эффективной занятости выпускников высших учебных заведений в Азербайджане» выявляются основные направления регулирования спроса и предложения на рынке труда выпускников высших учебных заведений. В этой главе рассматриваются пути совершенствования деятельности карьерных центров в обеспечении эффективной занятости выпускников высших учебных заведений в Азербайджане с учетом практики ведущих стран мира.

В заключительной части диссертации сформулированы выводы по результатам проведенного исследования и даны рекомендации, имеющие научную и практическую значимость.

**Rzayev Vusal Rza**

## The effects of career centers on regulation of supply and demand of high school graduates in the labor market

## Summary

The dissertation work consist of introduction, three chapters, conclusion and recommendations, annexes and the list of the used literature.

In “Introduction” section, reasoned the relevance of subject for solving the problem effectively, the issue of employment of higher education graduates in the labor market were analysed, and the level of study was noted. According to this, the purpose of research is that to study the effects of career centers on regulation of supply and demand of higher education graduates in labor market and identifying ways to increase this effect was noted.

In the first chapter, named as "Scientific and methodological basis of the regulation of supply and demand in the labor market in modern times", theoretical and methodological views about labor market in classical and modern economic conceptions, labor market, conceptual approaches to unemployment and employment, classical and modern methods about the study of supply and demand of labor force in labor market were reflected.

At the same time, mutual cooperation between higher education institutions and labor market and as well as activities of higher education graduates in the labor market have been studied extensively. In the second chapter, named as “Study of the effects of career centers on regulation of supply and demand of higher education graduates in labor market in Azerbaijan” the current situation of higher education graduates in the labor market in Azerbaijan have been analyzed.

In this chapter, in accordance with the requirements of the labor market of highly educated young people, the activity of university' s career centers also investigated in Azerbaijan. Besides, the sociological survey conducted by the author for evaluate the impact of career centers entering higher education graduates to labor market is given.

In the third chapter, named as "Directions of improving the performance of career centers on ensuring effective employment of higher education graduates in Azerbaijan", the directions of supply and demand regulation of high graduates in the labor market and ways of improvement of career centers activity on ensuring efficient employment of high graduates with taking into account of leading world experience were investigated in Azerbaijan.

Also in this chapter, the informations about Career Centers activity in many leading world universities are reflected.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Вусал Рза оглы Рзаев**

# ВЛИЯНИЕ ЦЕНТРОВ КАРЬЕРЫ В УРЕГУЛИРОВАНИИ СПРОСА И ПРЕДЛОЖЕНИЯ НА РЫНКЕ ВЫПУСКНИКОВ С ВЫСШИМ ОБРАЗОВАНИЕМ

5312.01 – «Отраслевая экономика»

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку - 2017**